# Qarabağın dirçəldilməsi prosesi inamla aparılır



***İkinci Qarabağ müharibəsi bitdikdən sonra, daha doğrusu, bu ilin əvvəllərindən Şuşada təmir-bərpa işlərinə başlanılıb. Şəhərin baş planı təsdiq olunub və bütün işlər operativ şəkildə həyata keçirilir.***



2021-ci ilin yanvar ayında möhtərəm Prezidentimizin ilk səfərini Şuşaya etməsi mədəniyyət tariximizin inkişafına göstərilən böyük diqqət və qayğının göstəricisidir. Şuşadakı 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və 72 mühüm tarixi abidədən ibarət bütün məkan adları Azərbaycanla bağlıdır, şəhər əhalisinin isə demək olar ki, hamısı azərbaycanlılardan ibarət olmuşdur. Dövlətimizin böyük səyi nəticəsində 24 oktyabr 2001-ci ildə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin ilkin siyahısına daxil edilmiş tarixi-memarlıq qoruğuna sahib olan Şuşa şəhəri təsadüfi deyil ki, Prezident İlham Əliyevin 07 may 2021-ci il tarixli sərəncamına əsasən, bu gün öz dirçəlişinə Azərbaycanın mədəniyyət pataxtı kimi başlamışdır.

Bu il mayın 12-13-də "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının uzun müddətdən sonra yenidən Şuşada keçirilməsi, bu günlərdə dövlətimizin başçısının yenidən xalqımıza daha bir qürur və sevinc hissi yaşadaraq Birinci vitse-prezident Mehriban Əliyeva ilə birlikdə Şuşaya növbəti səfəri bir daha mühüm tarixi, mədəni hadisələrlə yadda qaldı. Şuşanın baş planının dövlətimizin başçısına təqdim edilməsi, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, şairin büstünün, Bülbülün ev-muzeyinin, Üzeyir Hacıbəylinin heykəlinin açılışları, "Qarabağ" otelinin istifadəyə verilməsi, "Otel və Konfrans Mərkəzi"nin təməlinin qoyulması mədəniyyət paytaxtımızda həyata keçirilən yenidənqurma işlərinin tərkib hissələri kimi yaddaşlara yazıldı.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" musiqi festivalından sonra Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsinin bərpası isə mühüm mədəni, ictimai-siyasi hadisə olmaqla düşmənə və onun havadarlarına əsl gözdağı oldu.

Azərbaycan Prezidentinin və birinci xanımın Şuşaya səfərləri zamanı böyük dəyişikliklərin, yeniliklərin şahidi oluruq. Görülən işlər müzəffər Ali Baş Komandanın Şuşanın işğaldan azad edildiyi gün xalqa müraciətində inam və qətiyyətlə dediyi "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözlərinin çox qısa bir zamanda reallaşdığının şahidi olduq. Şuşanın baş planı əsasında yeni yaşayış kompleksinin təməlinin qoyulması o deməkdir ki, didərgin düşmüş şuşalılar qısa vaxtda doğma şəhərlərinə qayıdacaqlar və orada əbədi yaşayacaqlar. Prezident Şuşaya son səfərindəki çıxışında da bu məqama toxunaraq bildirdi ki, ən önəmli tədbir dünən yeni yaşayış kompleksinin təməl daşının qoyulması idi. Bu yaşayış kompleksi Şuşanın baş planı əsasında inşa ediləcək. Şuşanın baş planı təsdiq edildi və çox müfəssəl, gözəl işlənmiş plandır. Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur – üç, dörd və beş mərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar. Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir.

Dövlət başçısı çıxışında tarixi ədalətin bərpası və xalqımızın göstərdiyi böyük səbrdən danışarkən xüsusi olaraq vurğuladı ki, işğal dövründə bir çoxumuz – həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır.Dövlətimizin başçısı sözünə davam edərək onu da vurğulayıb ki, ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq".

Bütün bu baş verənlər Azərbaycanın mədəniyyət tarixinə göstərilmiş böyük ehtiramın bariz nümunəsi və yeni nəsil azərbaycanlılar üçün böyük bir iftixar hissidir. Bu səfərdə inşa ediləcək yeni obyektlərin təməllərinin qoyulması, habelə Şuşanın abadlaşdırılmasının sürətlə davam etdirilməsi artıq 30 ildir ki, didərgin düşmüş sakinlərin doğma şəhərinə tezliklə qayıtmasını təmin edəcək, eyni zamanda, Şuşanın ölkəmizin mədəniyyət paytaxtı, kimi burada daha böyük qlobal tədbirlərin keçirilməsinə şərait yaradacaqdır.

Azərbaycanda tarixən mövcud olmuş və bu gün də dövlət siyasətinin əsas istiqamətlərindən biri olan multikultural və tolerant cəmiyyət anlayışı inkişaf etdirilir. İşğaldan azad edilmiş ərazilərdə çoxsaylı müsəlman icması ilə yanaşı, digər dinlərə məxsus abidələr, ibadət yerləri mənşəyindən asılı olmayaraq Azərbaycan dövləti tərəfindən mühafizə, təmir və bərpa edilir. Bu isə öz növbəsində UNESCO-nun ona üzv dövlətlərin qarşısında səsləndirdiyi təlimatlardandır və bu iş Azərbaycanın işğaldan azad olunmuş ərazilərində də şamil olunmalıdır.

Hələ 2005-ci ilin oktyabrında UNESCO-nun 60 illiyinə həsr edilmiş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində Parisdə keçirilmiş "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovşağında" adlı tədbirdə çıxış edən Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Şərqlə Qərbin qovuşduğu bir məkan olaraq Azərbaycanın qlobal mədəni dialoqa öz töhfəsini verməyə hazır olduğunu vurğulamışdır.

Qazanılan uğurlara və illərdir aparılan qarşılıqlı əməkdaşlığa baxmayaraq, təəssüf ki, bu dəfə azad edilmiş ərazilərində tarixi, mədəni, dini irsin qorunması və saxlanması üzrə beynəlxalq öhdəliyinə sadiq qalan Azərbaycan Respublikası islamafob və ikili standratlarla üz-üzə qaldı.

Azərbaycan işğaldan azad olunmuş ərazilərdə törədilən dağıntıların müvafiq şəkildə sənədləşdirilməsi üçün bu ərazilərə müstəqil və hərtərəfli beynəlxalq missiyanın göndərilməsində ən maraqlı tərəf olaraq UNESCO ilə konstruktiv dialoqlar aparmışdır.

Əsas missiyası mədəni dəyərlərlə bağlı məsələlərə öz münasibətini bildirmək və bəşər sivilizasiyasına aid olan abidələrin qorunmasında iştirak etmək olan UNESCO nəinki erməni vandalizminin dünyaya çatdırılmasında aktiv rol oynamış, həmçinin ölkəmizin dəvətlərindən yayınmışdır.

Bu ayrıseçkilik və UNESCO tərəfindən göstərilən iradəsizlik isə BMT-nin dünyada olan nüfuzuna xələl gətirməklə yanaşı, 1993-cü ildən etibarən ikitərəfli əməkdaşlıq üzrə inkişaf edən qarşılıqlı əlaqələrə təsirsiz ötüşməyəcəkdir.

Azərbaycan bu gün işğaldan azad etdiyi öz tarixi bölgələrində bərpa-quruculuq işləri aparır. Bu proses onu göstərir ki, regionlarımızda, xüsusilə işğaldan azad edilən bölgələrimizdə yenidənqurma işlərinin sistemli şəkildə aparılması əhalinin ora qayıtmasını tezləşdirəcək və qısa müddətdə məcburi köçkünlərimiz öz doğma yurdlarına qovuşacaqlar. Qarabağın dirçəldilməsi, yenidən qurulması, uzun illər vandalizmə məruz qalan, dağıntılar törədilən gözəl məkanlarımız bərpa ediləcək, hətta daha fərqli, daha füsunkar fərqliliyə sahib olacaqdır. Aparılan inamlı işlər bunu deməyə əsas verir.

***Məzahir ƏFƏNDİYEV,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin deputatı***